# Məkrli oyunların arxasında ABŞ və Fransa var

## Azərbaycan COP29-a yüksəksəviyyəli evsahibliyi ilə onlara gözdağı verəcək

**"COP29 kimi mötəbər, beynəlxalq əhəmiyyətli tədbirin Azərbaycanda keçirilməsi, 200-ə yaxın ölkənin bu qərarı dəstəkləməsi ölkəmizə olan inamın, etibarın və etimadın təzahürüdür. Dünya ölkələri Azərbaycanın uğurlu inkişafını, tərəqqisini görür və bəyənir. Bu mənada ölkəmizin belə tədbirə evsahibliyi dost ölkələri sevindirməkdədir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Azərbaycanı sevməyən qüvvələrin olduğunu deyən siyasətçi qeyd edib ki, Ermənistan, havadarları, bəzi beynəlxalq təşkilatlar, antiazərbaycançı qüvvələr bu qlobal tədbir öncəsi aktivləşməyə başlayıblar.

Prezident İlham Əliyev çıxışlarında bu məsələyə toxunaraq söyləyib ki, COP29 konfransı yaxınlaşdıqca Azərbaycana qarşı təzyiqlər artacaq. Həqiqətən də, son vaxtlar Ermənistan başda olmaqla, havadarları bu və ya digər formada Azərbaycana təzyiqləri artırmağa başlayıblar. "Hazırda bu ölkələrin başında Amerika durur. ABŞ Dövlət Departamenti hər vəchlə Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycana təzyiq rıçaqlarını işə salmağa cəhd edir. Prezident İlham Əliyevin qətiyyəti, uğurlu siyasəti təsirlərin qarşısını almaqdadır. Son zamanlar ABŞ Konqresinin, Parlamentinin Dövlət Departamenti ilə məktublaşması, departamentin sifarişinin yerinə yetirilməsi Prezident İlham Əliyev tərəfindən də konkret faktlarla qeyd edilib. Bu məsələ, demək olar ki, ifşa olundu", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, ABŞ-nin adətən COP konfranslarını təşkil edən ölkələrə müxtəlif formalarda təzyiqlər göstərdiyinin şahidi olmuşuq. Amerika bununla həm transmilli şirkətlərini qorumağa, həm də bu təsirlər vasitəsilə həmin ölkəni təzyiq altında saxlayaraq hər hansı qərarların verilməsində öz gücünü göstərmək və digər maraqlarını güdmək siyasətini həyata keçirir. Qərbin, ABŞ-nin son zamanlarda COP29-la bağlı Azərbaycana qarşı cəfəng fikirləri tirajlaması həm ABŞ deputatlarının, siyasilərinin, həm də Fransanın bu sahədə aktivliyində, konfransın keçirilməsi ilə bağlı cürbəcür dezinformasiyaların yayılmasında özünü açıq-aydın göstərir.

V.İskəndərov bildirib ki, ölkəmizi dəstəkləyən yüzlərlə dövlət var: "Azərbaycanın yanında olan dövlətlər, transmilli şirkətlər bu tədbirin də digərləri kimi ən yüksək səviyyədə təşkil olunacağını bilirlər. Ölkəmizin beynəlxalq tədbirlərin keçirilməsindəki təcrübəsi dünyaya yaxşı məlumdur. Biz də əminik ki, dövlət başçısının, vacib sahələrə rəhbərlik edən Birinci vitse-prezident Mehriban Əliyevanın təşkilat komitəsinin, yaradılan vacib institutların birgə fəaliyyəti nəticəsində COP29 indiyədək keçirilən tədbirlərdən daha yüksək səviyyədə hazırlığı ilə yadda qalacaq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 13 oktyabr (№225).- S.5.